**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**
**YANINDA**
**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ELDAR ARİF oğlu CƏFƏROV**

# MÜASİR DÖVRDƏ TÜRKİYƏ-ABŞ MÜNASİBƏTLƏRİNİN SİYASİ-HƏRBİ ASPEKTLƏRİ

**İxtisas: 5901.01- "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı-2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, prof **A.N.Abbasbəyli**

**Rəsmi opponentlər:** Siyasi elmlər üzrə elmlər doktoru **E.X.Nəsirov**

Siyasi elmlər üzrə fəlsəfə doktoru **R.Ə.Sadiqov**

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin "Beynəlxalq münasibətlər" kafedrası

Dissertasiya müdafiəsi "___"_______ 2017-ci il tarixində saat _____-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__"________ 2017-ci il tarixində göndərilmişdir.

FD 02.101 Dissertasiya Şurasının elmi katibi,
fəlsəfə elmləri üzrə fəlsəfə doktoru, dosent S.İ. Məmmədova

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Beynəlxalq münasibətlər öz xarakterinə görə siyasi, iqtisadi, hərbi, elmi-texniki, ideoloji və mədəni olmaqla bir neçə istiqamətə bölünür. İkitərəfli və ya çoxtərəfli əlaqələrin qurulmasında onların hər biri kifayət qədər əhəmiyyətli rol oynasa da, heç şübhəsiz ki, beynəlxalq siyasi münasibətlər dövlətlər üçün daha vacib xarakter daşıyır. Belə ki, dövlətlərarası münasibətlər sistemi tam halda həm siyasi tərkibli, həm də hərbi spesifik formada dövlətin müxtəlif münasibətlərini əks etdirir. Ancaq əsl siyasi münasibətlər digərlərindən, məsələn, iqtisadi, elmi-texniki, mədəni və s. fərqlənir.

Təxminən iki əsri əhatə edən Türkiyə-Amerika əlaqələri hərbi, siyasi və təhlükəsizlik baxımından uzun yol keçsə də, bu münasibətlərin təməli ikinci dünya müharibəsindən sonra qoyulmuşdur. Müharibədən sonra Türkiyə təhlükə hesab etdiyi Rusiya/Sovetlər Birliyinə qarşı təhlükəsizlik çətiri olan Amerikanın başçılıq etdiyi Transatlantik alyansına qoşulmuşdur. İlk öncə Trumen doktrinası və Marşal planı, daha sonra isə Türkiyənin Transatlantik alyansına üzv olması ilə strateji müttəfiqlik Türkiyə-Amerika münasibətlərini müəyyən etmiş, bu münasibətlərin hərbi-siyasi tərəflərini önə çıxartmışdır.

“Soyuq müharibə”nin ilk dövründə Türkiyənin ABŞ-ın mövqeyini dəstəkləyərək Koreya müharibəsində iştirak etməsi, Bağdad paktının təsisçi üzvlərindən biri olması və Eyzenhauer doktrinasının prinsiplərini dəstəkləməsi kimi məqamlar heç şübhəsiz ki, Türkiyə-Amerika münasibətlərinə müsbət təsir etmişdir. Müxtəlif dövrlərdə ziddiyyətli məqamlar yaransa da, münasibətlər həmişə aktiv olmuşdur. İkitərəfli münasibətlərdə ilk gərginlik Kuba böhranı və Kiprə Türkiyə tərəfindən müdaxilə zamanı özünü göstərmişdir. Lakin 80-ci illər münasibətlərin ilk dövrdəki möhkəmliyini bərpa etmək baxımından uğurlu olmuşdur. Özal hakimiyyətinin qərb yönümlü xarici siyasəti və ABŞ-ın yardımı ilə Türkiyənin iqtisadi, siyasi, sosial sahələrdə inkişafı münasibətlərin 90-cı illərdəki vəziyyətinə təsirini göstərdi.

Hər iki dövləti XXI əsrin əvvəllərindən başlayaraq qlobal geosiyasi sistemdə baş verən dəyişikliklərin fonunda görmək mümkündür. Xüsusən də 2001-ci il 11 sentyabr hadisələrindən sonra

dünyada beynəlxalq terrrorizmə qarşı mübarizənin gücləndiyi bir vaxtda ikitərəfli əlaqələrin yeni hədəflərini müəyyənləşdirməyə eytiyac yarandı. Bu hadisə dünyanın geosiyasi vəziyyətini dəyişdirdi, beynəlxalq münasibətlər sistemində yeni meyarların yaranmasına tələbatı artırdı və dövlətlərarası münasibətlərə yeni məzmun verdi. Bir çox problemin meydana gəlməsi (Yaxın Şərqin geosiyasi vəziyyəti, təhlükəsizlik məsələləri və s.) Türkiyəni narahat etməyə bilməzdi. Burada həm regional təhlükəsizliyin tənzimlənməsi məsələsi həll edilməli, həm də yaranan münaqişəli vəziyyətlər siyasi dialoq yolu ilə aradan qaldırılmalı idi.

Hazırda Türkiyə-Amerika əlaqələri 2003-cü ildə İraq müharibəsindən sonra aldığı zədələri "sağaltmağa" başlayıb. Şimali İraqa müdaxilə məsələsinə Amerikanın müsbət münasibəti və buna zəmin hazırlaması iki dövlət arasındakı əlaqələri daha da yaxşılaşdırmışdır. Türkiyə-ABŞ münasibətləri dəfələrlə ciddi zərbələrə məruz qalsa da, əlaqələr möhkəmlənməkdədir. Əgər məsələyə ümumi yanaşsaq, bir müstəqil dövlətin digər dövlətlə münasibətlər yaratması məcburi deyil. Lakin vəziyyəti beynəlxalq münasibətlərə və ölkənin hazırkı durumuna görə təhlil etsək, problemləri və ehtiyacları görməmək qeyri-mümkündür. Bu mənada ABŞ və Türkiyədə iqtidara kimin gəlməsindən asılı olmayaraq, bu iki dövləti bir-birinə yaxınlaşdıran, münasibət qurmağa sövq edən amillər hər zaman mövcud olub.

Beləliklə, tədqiqat işinin mövzusunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarda ifadə etmək olar:

- Türkiyə ilə ABŞ-ı bir-birinə yaxınlaşdıran, onları münasibət qurmağa sövq edən amillər;
- Türkiyə ilə ABŞ-ın maraqlarının uyğun və toqquşduğu məqamlar;
- ABŞ-ın Türkiyənin dəstəyini qazanmaq niyyətinin səbəbləri;
- Türkiyə ilə ABŞ-ın siyasi və hərbi sahədə əməkdaşlığı və tərəfdaşlığının region üçün sosial nəticələri;
- Türkiyənin qonşu və region dövlətləri ilə əlaqələrinin yaranması, genişlənməsi və məhdudlaşmasında ABŞ-ın rolu;
- Türkiyə-ABŞ münasibətlərinin Qafqaz regionu, əlaxsus da Azərbaycan Respublikası üçün vacibliyi;
- Azərbaycan-ABŞ münasibətlərində Türkiyənin rolu;

- Türkiyə ilə ABŞ-ın siyasi və hərbi əməkdaşlığının real vəziyyəti haqqında təsəvvürlərin müxtəlifliyi.

**Problemin işlənmə dərəcəsi.** Tədqiqat işində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün müxtəlif xarici və yerli mənbə və ədəbiyyatlara müraciət edilmişdir. Lakin mövzunu tam əhatə edən əsərlər, demək olar ki, hələ yazılmamışdır. Bununla belə bəzi əsərlərdə problemin bu və ya digər istiqamətlərinə diqqət yetirilmişdir. Dissertasiyada tədqiq edilən problemlərə siyasi-nəzəri yanaşmaları bir neçə qrupa ayırmaq olar.

Birinci qrupa dövlətlərarası siyasi və hərbi əməkdaşlığın ümumi nəzəriyyəsinə aid tədqiqatlar daxildir. Bu tədqiqatlarda dövlətlərarası əməkdaşlığı şərtləndirən amillər, ənənəvi əməkdaşlıq münasibətlərini özündə birləşdirən ikitərəfli və çoxtərəfli diplomatiya, eləcə də dövlətlərin siyasi kurslarının qarşılıqlı əlaqələndirilməsini ehtiva edən müxtəlif ittifaq və müqavilələrin imzalanmasının rolu və əhəmiyyəti açıqlanır. Bundan başqa tədqiqat işlərində Türkiyə və ABŞ münasibətlərinin həm "Soyuq müharibə" , həm də dünya sosializm sisteminin dağılması dövründə hərbi-siyasi aspektlərinə diqqət yetirilmişdir.[1]

İkinci qrupa, müasir dövrdə Türkiyə-ABŞ hərbi-siyasi əməkdaşlığı və tərəfdaşlığının şərhinə həsr edilmiş tədqiqatlar daxildir. Bu təddiqat işlərində NATO çərçivəsində Türkiyə-ABŞ əməkdaşlığı, Türkiyənin Rusiya ilə münasibətlərində ABŞ-ın rolu və Türkiyənin Qafqaz siyasətində ABŞ faktoru kimi amillərdən bəhz olunmuş, Türkiyənin Qafqazın respublikaları ilə (Azərbaycan, Gürcüstan və Ermənistan) münasibətlərinə, Qafqazda ABŞ-ın geostrateji maraqları və onların həyata keçirilməsində Türkiyənin roluna diqqət yetirilmişdir.[2]

---

[1] Marvell G.,Schmitt D. Cooperation , N-Y., Academic Press, 1975 // Milner H. Strengthens and Weaknesses, Cambridge Press, 2001 // Özkan G. Soğuk Savaş Sonrası Orta Asya ve Kafkasya Ekseninde Türkiye-Nato-Rusya İlişkileri ve Türk Dış Politikası'na Yansımaları , Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi , 2010 // 2013'te Türkiye // SETA jurnalı dekabr 2013, sayı 74// Oran B. Türk dış politikası , III cilt , 2012 // İşyar Ö.G. Karşılaştırmalı Dış Politikalar: Yöntemler-Modeller-Örnekler ve Karşılaştırmalı Türk dış Politikası. Dora Basım-Yayın Dağıtım, Bursa, 2013

[2] Abbasbəyli A.N. Dünya siyasəti. Bakı: Nurlar, 2011// Büyükakıncı E. "Soğuk Savaş Sonrasında Türkiye-Rusya İlişkileri". 3. Baskı, İstanbul 2004 // Маркетос Т.Н. Глобальные и региональные акторы в «Геополитической толкучке»

Nəhayət, üçüncü qrupa aid olan ədəbiyyatlara Türkiyə-ABŞ əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivlərinə həsr edilmiş tədqiqatlar daxildir. Bu qrupa aid olan tədqiqat işlərində ABŞ-ın Yaxın Şərq siyasətində Türkiyənin rolundan, Türkiyə-İran münasibətlərinə ABŞ-ın münasibətindən və Türkiyə-İsrail əlaqələrinin tənzimlənməsində ABŞ-ın iştirakından bəhz olunmuş, Yaxın Şərqin bugünkü vəziyyəti, xüsusilə ərəb baharından sonrakı hadisələr ayrıca nəzərdən keçirilmişdir.[3] İranın mövcud vəziyyətinə, enerji və nüvə siyasətinə dair Türkiyə-İsrail münasibətlərində zaman-zaman yaşanan gərginliklər və bu münasibətlərin tənzimlənməsində ABŞ-ın roluna həsr edilmiş tədqiqatlar bu qrupa daxildir.[4]

Dissertasiya işi yazılarkən istifadə olunan elmi ədəbiyyatı bir neçə aspektdə nəzərdən keçirmək olar: hərbi-siyasi tərəfdaşlıq haqqında ayrı-ayrı siyasətçilərin, filosof və sosioloqların baxışlarını əks etdirən nəzəri tədqiqatlar, "Soyuq müharibə" dövründə regionda beynəlxalq münasibətlərin tədqiqinə həsr olunan əsərlər və dünya sosialist sistemin süqutundan müasir dövrümüzə kimi Türkiyə-ABŞ münasibətlərinin hərbi və siyasi aspektlərinə həsr edilmiş tədqiqatlar.

Dissertasiya işinin mövzusu birbaşa Türkiyə və ABŞ-ın xarici siyasəti ilə bağlı olduğu üçün həm türk, həm də Qərb müəlliflərinin

---

вокруг энергоресурсов Восточного Средиземноморья: США, Россия, Израиль, Турция, Иран // Центральная Азия и Кавказ, Том 16. Выпуск 1, 2013, // Путин и Эрдоган обсудили газ, безопасность и туризм / Российская газета, 2013 // Badie B. Diplomacy of Connivance, USA . N-Y.:Macmillan press, 2012// Satterthwaite, J.C. The truman doctrine: Turkey. Annals of the American Academy of Political and Social Science , 1972

3 Oran B. Türk Dış Politikası, I cilt. 2012, //Sönmezoğlu F. II. Dünya Savası'ndan günümüze Türk dış politikası. İstanbul, 2006, //Гучанин М.П. Турция и США: основные этапы торгово-экономического сотрудничества. М.: ИИИиБВ, 2009 // Park W.H. The Security Dimensions of Turkey – EU Relations. The EU & Turkey: A Glittering Prize or a Millstone, London, Federal Trust for Education and Research, 2005

4 İsmayılzadə S.N. ABŞ və Avropa dövlətlərinin İranın nüvə proqramına münasibətləri ,Tarix və onun problemləri, 2012, //Qasımlı V.P., Şiriyev Z.N., Vəliyeva Z.A. İran və Ermənistan münasibətləri:geosiyasi reallıq siyasi iddialar. Bakı: Təhsil, 2011, //Israil'le Alçak Koltuk Krizi // Milliyet yanvar 2010 Tekkaya D. Büyük ortadogu projesi ve Türkiyenin konumu. Ankara, 2007, //Иванова И.И. Турецко-израильские отношения и проблемы региональной безопасности//Ближний Восток: проблемы региональной безопасности. Сб.статей. М.: ИИИ и БВ, 2000, //Davutoğlu A. Stratejik Derinlik, İstanbul, 2012,

əsərləri ətraflı tədqiq edilmişdir. Bu əsərlərdə diqqət çəkən əsas məqam baş vermiş hadisələrdə Türkiyə diplomatiyasının mövqeyinin araşdırılmasıdır.

Prof. Dr.Tayyar Arının 2010-cu ildə dərc olunan "Yükselen güç: Türkiye-ABD ilişkileri ve Ortadoğu" adlı əsərində İkinci dünya müharibəsindən Obama dönəminə qədər olan türk-amerikan münasibətlərinin hərbi-siyasi aspektləri tədqiq edilmişdir.[5]

Türkiyə Qalatasaray Universitetinin professoru Dr.Füsun Türkmənin 2012-ci ildə nəşr etdirdiyi "Kırılgan ittifak`tan Model ortaklığa: Türkiye-ABD ilişkileri" kitabında isə AKP-nin iqtidara gəlişi ilə Türkiyə-ABŞ münasibətlərindəki kəskin dəyişiklikdən və Yaxın Şərq məsələlərində ABŞ-ın Türkiyə ilə hesablaşmalı olduğundan bəhz edilir. [6]

Müasir Türkiyənin siyasi və akademik həyatında kifayət qədər nüfuz qazanmış şəxslərdən biri olan A.Davudoğlunun "Strateji derinlik" adlı kitabı ilə yanaşı xarici siyasətin İstanbul və Ankara məktəblərinin duayenləri olan F.Sönmezoğlu və B.Oranın müasir dövrdə Türkiyənin xarici siyasəti ilə bağlı dərslik və dərs vəsaitləri dərindən araşdırılımışdır.[7]

Azərbaycanlı alimlərdən R.Mehdiyevin , Ə.Həsənovun, A.Abbasbəylinin , İ.Musanın , A.Piriyevin, H.Babaoğlunun, M.Abdullayevin, Ə.Əhmədovun və başqalarının əsərlərində Türkiyə-ABŞ əməkdaşlığında Qafqazın əhəmiyyətinə dair təhlillər aparılmış, beynəlxalq münasibətlərin təbiəti, qanunauyğunluqları və inkişaf meylləri nəzərdən keçirilmişdir.[8]

---

[5] Arı T. Yükselen Güç, Türkiye-ABD ilişkileri ve Ortadoğu. Bursa, 2010,

[6] Türkmen F. Kırılgan-ittifak`tan Model ortaklığa: Türkiye-ABD ilişkileri İstanbul, 2012,

[7] Davutoğlu A. Stratejik Derinlik, İstanbul, 2012,//Sönmezoğlu F. II. Dünya Savası'ndan günümüze Türk dış politikası. İstanbul, 2006//Oran B. Türk Dış Politikası, I cilt. 2012,//Oran B. Türk dış politikası , III cilt İletişim Yayınları , İstanbul , 2012,

[8]Abbasbəyli A.N. Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar. Bakı: Şirvannəşr, 2006, //Abbasbəyli A.N. Dünya siyasəti. Bakı: Nurlar, 2011, //Abbasbəyli A.N. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri əsasları. Bakı: Şirvannəşr, 2006, //Abbasbəyli A.N. Müasir dünyanın siyasi mənzərəsi. Bakı:Təhsil,2008//Abbasbəyli A.N., Nəcəfov E.Ə. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı: Mütərcim, 2007, 208 s.// Abdullayev M.İ. Azərbaycan – Türkiyə diplomatik siyasi münasibətləri. Bakı: Mütərcim, 2000, //Abdullayev M.İ.

İngilis dilli müəlliflərdən Kramer-in "Dəyişən Türkiyə: Aİ və ABŞ istiqamətində dəyişikliklər" və Barkey-in 2000-ci illərdə iki ölkə arasındakı siyasi-hərbi münasibətləri təsvir edən "Sonsuz İnam-ABŞ-Türkiyə münasibətlərinin inkişafı"[9] adlı kitablarını xüsusilə qeyd etmək lazımdır.

Bütövlükdə, yuxarıda adı çəkilən tədqiqatlarda Türkiyə xarici siyasəti dərindən və kompleks şəkildə təhlil edilmişdir. Eyni zamanda, bu mövzuda aparılan hər bir tədqiqat işində ayrı-ayrı mövzular üzrə türk-amerikan əməkdaşlığına dair təhlillər verilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dövrdə Türkiyə-ABŞ münasibətləri, predmetini isə Türkiyə-ABŞ münasibətlərinin siyasi-hərbi aspektləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Türkiyə və ABŞ-ın oxşar və toqquşan maraqlarını təhlil etməklə müasir dövrdə onlar arasında münasibətlərin əsas istiqamətlərini eləcə də, ayrı-ayrı vaxtlarda münasibətlərin hərbi-siyasi aspektlərini, bu münasibətlərin region dövlətlərinə təsirini öyrənməkdir.

Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- Dövlətlərarası siyasi və hərbi əməkdaşlığın əhəmiyyətini müəyyənləşdirmək;
- Türkiyə-ABŞ münasibətatlərinə təsir edən amilləri aydınlaşdırmaq;
- "Soyuq müharibə" dövründə hərbi-siyasi sahədə türk-amerikan tərəfdaşlığını şərtləndirən amilləri aşkar etmək;

---

Beynəlxalq münasibələr tarixi (XX əsr). II hissə (1946-1999-cu illər). Bakı: Təhsil, 2006,// Babaoğlu H.B. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, 2009,//Babaoğlu H.B. Dünya siyasəti və müasir beynəlxalq münasibətlər, Bakı: UniPrint, 2014, //Əhmədov Ə.R. Azərbaycan beynəlxalq münasibətlərdə (türkdilli dövlətlərlə əlaqələr). XX əsrin 90-cı illəri. Bakı: Təhsil, 2009// Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. I hissə. Bakı: Ockar MPM, 2008,// Piriyev A.M. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı:BDU,2005// Musa.İ Azərbaycanın xarici siyasəti III cild.Bakı, Bakı Universiteti 2011// Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005,

[9] Kramer H.A Changing Turkey: The Challenge to Europe and the United States, The Brookings Institute, 2000,//Barkey H.J. The Endless Pursuit, Improving U.S.-Turkish Relations, N-Y.: The Century Foundation Press, 2003

- sosializm sisteminin dağılması dövründə Türkiyə-ABŞ münasibətlərinin genişlənməsinin səbəblərini aşıqlamaq;

- strateji ortaqlığın yaranması və inkişafının səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq;

- müasir dövrdə NATO çərçivəsində türk-amerikan strateji ortaqlığının əsas istiqamətlərini müəyyənləşdirmək;

- Türkiyə-Rusiya əlaqələrinə ABŞ-ın münasibətini aydınlaşdırmaq;

- Qafqaz regionunda türk-amerikan strateji ortaqlığının səbəblərini və gələcək hədəflərini nəzərdən keçirmək;

- Azərbaycan Respublikası üçün Türkiyə-ABŞ strateji ortaqlığının vacibliyini aydınlaşdırmaq;

- Türkiyənin Yaxın Şərq siyasətində artan təsirinin və ABŞ-ın sosial nəticələrini tədqiq etmək;

- Türkiyə-İran siyasi əməkdaşlığına ABŞ-ın təsirini öyrənmək;

- Türk-İsrail münasibətlərinin regiona təsirini müəyyənləşdirmək.

**Tədqiqatın mənbəşünaslıq bazası:** Dissertasiyada istifadə olunan mənbələri iki qrupa ayımaq olar. Birinci qrupa Türkiyə və ABŞ dövlət orqanlarının rəsmi sənədləri, iki dövlət arasındakı diplomatik sənədlər, digər qrupa beynəlxalq təşkilatların bəyanatları və rəsmi materiallar daxildir. Tədqiqatda istifadə olunan mənbələrin müəyyən hissəsini rəsmi nəşrlər, dövlət başçılarının və vəzifəli şəxslərin qəzet və jurnallara verdiyi müsahibələr, bəyanatlar təşkil edir. Bundan başqa, dissertasiya işində Türkiyə Respublikasının ABŞ-la əməkdaşlığını əks etdirən rəsmi sənədlərdən də istifadə olunmuşdur. İki dövlətin tərəfdaşlığının təhlili üçün ən vacib sənədlər Xarici İşlər Nazirliyinin, dövlət başçılarının rəsmi veb-saytında yer almış rəsmi sənədlərdir. Bununla yanaşı, dissertasiya işində digər nazirliklərin rəsmi veb-saytındakı sənədlərdən də istifadə olunmuşdur.

**Tədqiqarın nəzəri-metodoloji əsasları:** Tədqiqat işinin nəzəri əsaslarını ilk növbədə Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının mövzu ilə əlaqədar irəli sürdükləri konseptual müddəalar, həmçinin ümumilikdə beynəlxalq münasibətlər sisteminin müxtəlif aspektlərini tədqiq edən alimlərin fikirləri, Türkiyə, ABŞ dövlət başçılarının

müxtəlif dövrlərdə Türkiyə-ABŞ münasibətlərinə dair fikirləri təşkil edir.

Tədqiqatın metodoloji əsasını isə beynəlxalq münasibətlər və digər siyasi elmlərdə istifadə olunan ümumi və xüsusi metodlar təşkil edir ki, onlardan ən çox müqayisəli (komparativ), empirik, struktur-funksional təhlil, kontent-analiz, ivent-analiz, müşahidə, sənədlərin öyrənilməsi, sistemli yanaşma və müxtəlif proqnoz metodlarından istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ilk dəfə olaraq ölkəmizdə Türkiyə-ABŞ münasibətlərinin siyasi-hərbi aspektlərinin araşdırılması;
- hərbi və siyasi baxımdan əməkdaşlığı şərtləndirən amilllərin nəzəri cəhətdən təhlil edilməsi;
- Qafqaz regionunda Türkiyə-ABŞ strateji ortaqlığının genişlənməsinə Rusiyanın münasibətinin təhlil edilməsi;
- Azərbaycan-ABŞ münasibətlərində Türkiyənin rolunun müəyyənləşdirilməsi müasir mərhələdə ABŞ və Türkiyənin İsrail dövləti ilə qarşılıqlı münasibətlərinin səviyyəsinin qiymətləndirilməsi;
- Türkiyə-İran-İsrail üçbucağında ABŞ-ın əhəmiyyətinin müəyyənləşdirilməsi;
- ərəb baharı dövründə Türkiyə və ABŞ-ın region dövlətlərinin hər birinə ayrı-ayrılıqda münasibətinin qiymətləndirilməsi;
- ərəb dövlətləri üçün Türkiyə və Amerikanın geosiyasi əhəmiyyətinin açıqlanması;
- türk-amerikan münasibətlərinin regionun gələcəyinə təsirinin proqnozlaşdırılması.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** Türkiyə və ABŞ-ın Yaxın Şərq regionunda geosiyasi məqsədlərinin tarixi mərhələlər üzrə araşdırılması və bu siyasətin ümumi cəhətlərinin və spesifik xüsusiyyətlərinin üzə çıxarılması, hər iki dövlətin regionun digər dövlətləri ilə qarşılıqlı münasibətlərinin qurulmasına təsirinin nəzəri baxımdan əsaslandırılması, həmçinin tədqiqatın nəticələrinin konkretləşdirilməsi və ümumiləşdirilməsi zərurəti ilə bağlıdır. Burada aparılan təhlillər və əldə olunmuş nəticələr yeni tədqiqatlar üçün nəzəri mənbə hesab oluna bilər.

Tədqiqatın elmi-nəzəri nəticələri beynəlxalq münasibətlər sahəsini əhatə edən müvafiq strukturların fəaliyyətində istifadə oluna bilər. Dissertasiya işində irəli sürülmüş təkliflər və əsaslandırılmış tövsiyələrdən müasir mərhələdə region dövlətlərinin xarici siyasətinə həsr edilmiş ümumiləşdirici əsərlərin, geosiyasi məsələlərə dair dərsliklərin hazırlanmasında istifadə oluna bilər. Eləcə də dissertasiyanın nəticələrinin ali məktəblərdə müasir beynəlxalq münasibətlərin aktual problemləri üzrə mühazirə mətnlərinin hazırlanmasında da mühüm əhəmiyyəti ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiya işinin əsas məzmunu və elmi müddəaları müəllifin "Tarix və onun problemləri", "Odlar Yurdu Universiteti", "Geostrategiya" və digər elmi jurnal və toplularda çap edilmiş məqalələr (xaricdə 1) və konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu** tədqiqatın məqsəd və vəzifələri ilə müəyyən edilir. Dissertasiya işi giriş, üç fəsil (doqquz yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq olunan mövzunun aktullığı əsaslandırılır, mövzunun işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri-metoloji əsasları müəyyənləşdirilir, elmi yeniliyi və nəzəri-praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın "**Türkiyə-ABŞ münasibətlərinin politoloji təhlili**" başlığı altında təqdim edilən **birinci fəslinin "Dövlətlərarası əməkdaşlıq: mahiyyəti və nəzəri konseptual əsasları"** adlanan **birinci yarımfəslində** dövlətlərin müxtəlif sahələrdə əməkdaşlıq etmək üçün əsas səbəblər, əməkdaşlığın forma və növləri, əməkdaşlığa dair müxtəlif siyasi sahə mütəfəkkirlərinin fikirləri, ayrı ayrılıqda üç əsas paradiqma-realizm, liberalizm və marksizmin əməkdaşlığa dair ideyaları tədqiq edilmişdir.

Dövlətlərarası əməkdaşlığın tədqiqi dövlətlər arasında əməkdaşlıq yollarını müəyyənləşdirməyə imkan verir. H.Milner bu

hipotezlərdən altısından bəhs edərək təhlil etmişdir: 1.Qarşılıqlıq hipotezi 2.Aktorların sayı hipotezi 3.Təkrarlıq hipotezi 4.Beynəlxalq rejimlər hipotezi 5. Epistemik qruplar hipotezi 6.Güclərin assimmetriyası hipotezi.[10] Ümumiyyətlə, dövlətlərarası əməkdaşlıq probleminin öyrənilməsi rəqabət və konfliktologiya problemlərinin öyrənilməsindən sonraya təsadüf edir. Əgər konfliktologiyanın yaranması beynəlxalq münasibətlər nəzəriyyəsi çərçivəsində artıq XX əsrin 50-ci illərinə təsadüf edirdisə, bunu dövlətlərarası əməkdaşlıq probleminə şamil etmək olmaz. Əməkdaşlıq probleminin tədqiqi əsasən siyasi-hərbi ittifaqlarla və 60-cı illərdən etibarən zəif inkişaf etmiş dövlətlərə iqtisadi yardımla bağlı idi. Az sonra inteqrasiya və qloballaşma prosesləri də dövlətlərarası əməkdaşlığın nəticəsi kimi qiymətləndirildi.

Beləliklə, beynəlxalq əməkdaşlıq probleminə müxtəlif metodoloji əsasdan yanaşırlır. Əgər liberalizm beynəlxalq əməkdaşlıq məsələsində üstünlüyü ümumbəşəri marağa, kollektiv təhlükəsizliyə, beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsinə, beynəlxalq aləmdə baş verən hadisələrin emosional dərk olunmasına verdisə, realizm üstünlüyü milli marağa, xarici təhlükəni nəzərə almağına, qüvvələr balansına və beynəlxalq aləmdə baş verən hadisələrin rasional dərk olunmasına verir.

**"Soyuq müharibə" dönəmində Türkiyə-ABŞ hərbi-siyasi əməkdaşlığı: yaranması, ziddiyyətləri və nəticələri"** adlanan birinci fəslin ikinci yarımfəsli 1946-cı ildə"Missuri" gəmisinin İstanbula yan almasından sosialist blokun dağılmasınadək olan dövrü əhatə edir və iki ölkənin münasibətlərinin hansı tempdə inkişafından bəhz edir. Burada Trumen doktrinası, Marşal planı, Türkiyənin NATO-ya üzvlüyü, "Kubaya qarşı Türkiyə bazarlığı", Kipr böhranı və digər mövzularıdan söz açılır. Dövr üçün Türkiyə NATO və digər müttəfiqlik müqavilə və sazişlərinə sadiq olaraq qalır, başda qonşular olmaqla bütün ölkələrlə qarşılıqlı suverenlik və hörmət, bir-birinin daxili işlərinə qarışmamaq əsasında və bərabər şərtlər daxilində iqtisadi, sosial və mədəni əlaqələri inkişaf etdirmək qərarındadır.

---

[10] Milner H. International Theories of Cooperation: Strengths and Weaknesses. World Politics. Cambridge Press,Vol.44,1992

Beynəlxalq məsələlərin sülh yolu ilə həll edilməsi yönümündə siyasətini davam etdirir. 1990-cı illər Türkiyə və ABŞ arasında, bir çox problemlərlə bağlı ikitərəfli əlaqələrin inkişafı dövrüdür. "Səhra fırtınası" hərəkatındakı əməkdaşlıq da bunun göstəricisidir. Türkiyə bu hadisədə Amerika və müttəfiqlərinin yanında könüllü iştirak etmiş, döyüşə birbaşa qatılmamaqla torpaqlarındakı bazaların istifadəsinə icazə vermiş, İraqa qarşı tətbiq olunan iqtisadi sanksiyalara da qatılmışdır.

Türkiyə - ABŞ arasında ikitərəfli və qarşılıqlı xarici siyasət 1980-ci ilin hərbi çevrilişindən sonra müsbət şəkildə davam etmiş, Körfəz böhranı daha da güclənmişdir. Sovet İttifaqının 1991-ci ildə süqutundan bu günə qədər mövcud əlaqələr müttəfiq olan iki dövlət çərçivəsində inkişaf edir.

1980-ci illərin sonunda da beynəlxalq əlaqələrdə və Türkiyənin daxili siyasi həyatında əhəmiyyətli dəyişikliklər baş versə də Türkiyə ABŞ-la olan əlaqələr inkişaf etmişdir.

Dissertasiyanın birinci fəslinin üçüncu yarımfəsli **"Dünya sosializm sisteminin süqutu dövründə Türkiyə və ABŞ-ın siyasi-hərbi əməkdaşlığının hədəfləri"** adlanır. Yarımfəsildə ilk öncə sosialist düşərgəsinin parçalanması dövründə Türkiyənin xarici istiqamətlərində həyata keçirdiyi siyasətin konturlarının dəyişməsi və intensivləşməsi, SSRİ-nin dağılmasından sonra NATO-nun Şərqə doğru genişlənməsi, NATO-nun fəaliyyətində yeniliklər, Vaşinqton və Roma strateji konsepsiyalarında Türkiyənin rolu, Körfəz müharibəsində müttəfiq olaraq iştirakı və ərazisindən istifadəyə icazənin verilməsi, Türkiyənin Avropa Birliyinə daxil olmaq istəyinin ABŞ tərəfindən necə dəstəklənməsi və digər mövzular işiqlandırılır.

Tədqiqat işində bu problemlərə Türkiyənin Yaxın Şərqin regiondaxili proseslərinə təsiri kontekstində baxılmış, digər region olan Cənubi Qafqaz və Orta Asiya istiqamətlərində Türkiyənin yeni qonşular və türkdilli dövlətlərlə münasibətlərinin yaradılması fonunda tarixi keçmişə qayıdış siyasəti araşdırılmışdır.

Bununla yanaşı SSRİ-nin dağılması ilə NATO-ya yeni üzvlərin qoşulmasına ilk öncə Türkiyənin qısqanclıqla yanaşması və sonradan bu prosesə mane ol bilməyəcəyini anlayıb da geri çəkilməsi Türkiyə-ABŞ münasibətlərində müsbət hal kimi dəyərləndirilib. Yeni üzvlər Türkiyənin təhlükəsizliyi baxımından hər hansı bir töhfə

verməyəcək, əksinə yeni üzvlərin NATO-ya daxil olması ilə Türkiyənin öhdəlik və yükünün artması demək idi. NATO-nun artıq SSRİ-yə düşmən kimi yanaşmaması Türkiyənin geostrateji əhəmiyyətini azatmış kimi görünsə də, yeni təhdidlərin Türkiyəyə coğrafi yaxınlığı onun müxtəlif bölgələrdə geosiyasi əhəmiyyətini artırmışdır. Körfəz müharibəsində, Bosniya-Herseqovina və Kosovaya edilən müdaxilələrdə Türkiyənin dəstəyinə ehtiyac duyulması Türkiyənin NATO-dakı əhəmiyyətinin göstərirdi.

Dissertasiyanın **"Müasir dövrdə Türkiyə-ABŞ siyasi-hərbi əməkdaşlığının əsas istiqamətləri"** başlıqlı **ikinci fəslində birinci yarımfəsil "NATO çərçivəsində Türkiyə-ABŞ hərbi əməkdaşlığı"** adlanır. Burada çağdaş zamanda hərbi blok daxilində ABŞ-ın Türkiyəyə hərbi isqamətdə yardımı, mövcud durum, əldə edilmiş nailiyyətlər və qarşıda duran problemlərə nəzər yetirilmişdir.

Türkiyə ilə ABŞ arasında yaşanan böhranlar və yaranan gərginliklər NATO-nu Türkiyənin Qərb dünyası ilə olan münasibətlərinin ən mühüm strateji vasitəsinə çevrilmişdir. Türkiyə-Avropa Birliyi əlaqələrindəki problemlərin NATO üzvü olan Avropa ölkələrinə təsiri Türkiyə ilə ABŞ arasındakı ikitərəfli münasibətlərin Türkiyə-NATO əlaqələri üçün əhəmiyyətini artırır. "Soyuq müharibə"-nin bitməsindən sonra NATO qarşısında duran ən vacib məsələ şərqə doğru genişlənmək idi. Bu hadisə təşkilat daxilində əməkdaşlığın inkişafı və təhlükəsizliyin gücləndirilməsi üçün yeni imkanlar açdı.

11 sentyabrda Vaşinqton və Nyu-Yorkdakı terror aktlarından sonra Türkiyə müttəfiqi olan ABŞ-a dərhal dəstək verdi. Ecevit hökuməti bir tərəfdən NATO-da ümumi müdafiəni nəzərdə tutan 5-ci maddənin ilk dəfə işlədilməsini dəstəklədi, digər tərəfdən də "Əl-Qaidə" üzvü olan şəxsləri həbs etməyə və "Əl-Qaidə"-nin maddi qaynaqlarını ABŞ kəşfiyyatı ilə birgə müəyyənləşdirməyə Türkiyə hava məkanı dərhal ABŞ təyyarələri üçün açıldı və Əfqanıstana humanitar yardım "İncirlik" bazasından göndərildi. ABŞ Əfqanıstanı işğala hazırlaşanda və bu məqsədlə ölkədə Talibana qarşı mübarizə aparan "Şimal İttifaqı"na dəstəyi artıranda bütün bu müddət ərzində Türkiyənin də yardımını aldı. Əfqanıstan hadisələri NATO-nun fəaliyyətində ABŞ-ın rolunun daha böyük olduğunu göstərdi. Ancaq 2003-cü ilin mart ayında Türkiyə parlamentində İraqa hərbi müdaxilə üçün öz ərazisindən ABŞ-ın istifadəsi məsələsi müzkirə nəticəsində

səs toplamaması, beynəlxalq KİV-in bu hadisəni Vaşinqton üçün "soyuq duş" adlandırması Türkiyə-ABŞ münasibətlərinin gərginləşməsinə gətirib çıxarmadı.

Son dövrlərdə də NATO çərçivəsində Türkiyə ordusunun ABŞ ordusu ilə birgə təlimləri, Afyon-Karahisar, İncirlik və digər hərbi bazarların fəaliyyəti Türkiyə ictimaiyyətində yeni bir ifadəni formalaşdılrdı. "NATO Türkiyə üçün bir güc deyil, bir yükdür".

İkinci fəslin ikinci yarımfəsli **"Türkiyə-Rusiya münasibətlərində ABŞ faktoru"** adlanır. Yarımfısildə 1992-ci il «Dostluq, Qonşuluq, Əməkdaşlıq» müqaviləsindən başlayaraq 2015-ci il noyabr "SU-24" hərbi təyyarəsinin vurulması anınadək olan hadisələr tədqiq edilib. Hal-hazırda Rusiya Türkiyənin qaz ehtiyatının 70%-ni ixrac edir. Bundan əlavə iki ölkə arasında ticarət əlaqələri müəyyən dövr üçün problemlərə baxmayaraq davam etməkdədir. Bundan başqa Qafqaz və Mərkəzi Asiyada Türkiyənin geosiyasi və geoiqtisadi maraqlarının güclənməsi Rusiya ilə münasibətlərdə gərginləşməyə də zaman zaman səbəb olmuşdur. R.T. Ərdoğanın Rusiyaya səfərləri zamanı neft-qaz boru kəmərləri və müqavilələri, atom enerjisi sahəsində əməkdaşlıq və Rusiyanın Türkiyədə bir AES inşa etməsi kimi mövzular ilk dəfə yuxarı səviyyəli görüşdə müzakirə olunur və münasibətlərin inkişafının simvolu olaraq iki ölkə arasında viza məhdudiyyətləri aradan qaldırılır. Öz növbəsində, ABŞ Rusiya ilə Türkiyə arasında son zamanlar müşahidə edilən əməkdaşlığa laqeyd qala bilməz. Odur ki, Amerika Ankaranın manevr imkanlarını məhdudlaşdırmağa çalışır. Lakin buradan göründüyü kimi, Ankara ilə Moskva arasındakı münasibətlər qlobal miqyasda getdikcə daha çox əhəmiyyət kəsb edir. Ekspertlərin fikrincə, Kreml Türkiyə ilə strateji əməkdaşlıqda maraqlıdır. Bunun əsas səbəbi Moskvanın qlobal miqyasda öz geosiyasi nüfuzunu daha da artırmaq niyyətidir. Eyni zamanda başqa bir məqamı da unutmaq olmaz. Avropa İttifaqı Türkiyəni 50 ildir ki, üzvlüyə qəbul etmir və müxtəlif bəhanələrlə məsələnin həllini uzadır. Təbii ki, Ankara vəziyyətin bu cür qalmasını istəmir. Odur ki, Sankt-Peterburqda R.T.Ərdoğanın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) daxil olmaq istəyini bildirməsi buna bariz nümunədir.

Beləliklə, Rusiya-Türkiyə münasibətlərinin müəyyən bir həddə qədər dərinləşə biləcəyini ehtimal etmək olar. Burada İran, Suriya, Səudiyyə Ərəbistanı, Azərbaycan, Gürcüstan və Mərkəzi Asiya

ölkələri faktorunu da yaddan çıxarmaq olmaz. Bu kontekstdə Avrasiya məkanında geosiyasi mübarizənin dinamikasının yüksələcəyini proqnozlaşdırmaq mümkündür.

**"Türkiyənin Qafqaz siyasətində ABŞ-ın yeri" adlı üçüncü yarımfəsildə** SSRİ-nin dağılmasından sonra Qafqazda maraqları olan yeni aktorlar - Türkiyə və ABŞ-ın siyasətinin intensivləşməsi, ABŞ-ın C.Qafqazda geostrateji maraqları və Türkiyənin bu siyasətdə vasitəçi olması, Xəzərin karbohidrogen ehtiyatlarından istifadə, enerji layihələri, Azərbaycana qarşı "907-ci düzəliş" və bu düzəlişin dondurulmasında Türkiyənin Azərbaycana dəstəyi, ABŞ-Azərbaycan münasibətləri, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin rolu, ABŞ-ın ATƏT-in Minsk qrupunda həmsədrlərdən biri olması, Azərbaycan Respublikasınının NATO-nun SNT proqramında iştirakı, Türkiyə-Gürcüstan iqtisadi əməkdaşlığı, Gürcüstan-NATO münasibətləri, ABŞ-da erməni lobbisi, "Qondarma erməni soyqırımı" regionun gələcəyinə dair ABŞ və Türkiyənin mövqeyi məsələləri tədqiq edilmişdir.

SSRİ-nin dağılması və dünyanın bipolyar strukturunun başa çatmasından sonra Avrasiya məkanında yeni beynəlxalq əhəmiyyətli geosiyasi regionlar meydana gəldi. Qara dənizlə Xəzər dənizi arasında yerləşən Qafqaz regionu ABŞ, Türkiyə, Rusiya və İran kimi dövlətlərin yeni maraq dairəsinə çevrildi. Qafqaz həm də dünyanın yeganə fövqəldövləti olan ABŞ-ın Xəzər regionundakı enerji siyasətinin həyata keçirilməsində mühüm rol oynayır.

Cənubi Qafqazın ABŞ-ın siyasi maraqlar dairəsinə çevrilməsində Rusiyanın böyük səhvi olmuşdur. SSRİ-nin süqutundan sonra bu strateji region nəzarətsiz qaldı. Rusiyanın başı öz daxili işlərinə qarışdığından keçmiş ittifaq respublikalarının tezliklə müstəqil xarici siyasət həyata keçirəcəkləri güman edilirdi. Odur ki, ilk illərdə Cənubi Qafqazda ABŞ mövqeyinin Rusiyanın mövqeyini sıxışdırıb çıxaracağı kimi fikirlər formalaşdı. Bu müxtəlif proqram və layihələrlə davam etsə də, nəticə yenə də Rusiyanın əlində cəmləşdi. Müstəqilliyin ilk illərində siyasi cəhətdən Azərbaycanın Qərbə meyl etməsinin səbəblərindən biri də Rusiyanın Qarabağ problemində tutduğu mövqe idi. Ancaq bu nöqteyi-nəzərdən Rusiyanın regionda nüfuzunun aşağı düşmədi, tam əksinə olaraq Ermənistanda hərbi bazalar ilə regiona təsir gücü get-gedə artdı.

Bununla yanaşı isə ABŞ-ın timsalında Qərbin regiondakı mövqeyi də azalmadı.

**"ABŞ Türkiyənin Orta Şərq siyasətində: regional əməkdaşlıq və ziddiyyətlər" adlandırılan üçüncü fəsil** çağdaş dönəmdə Türkiyənin regiona nisbətdə siyasətində əsas konturları özündə ehtiva edir. Fəslin **"ABŞ-ın Yaxın Şərq siyasətində Türkiyənin yeri"** adlanan **birinci yarımfəsil**də İraq məsələsi, Misirdə inqilab, PKK problemi, Suriya problemi kimi ağır məsələlərdə Türkiyə və ABŞ siyasətlərinin uzlaşdırılması tədqiq edilib.

Müasir dövrdə Türkiyənin Yaxın Şərq dövlətləri ilə münasibətləri yalnız bu ölkələrin xarici siyasəti baxımından deyil, eyni zamanda regionda həyati maraqlara sahib olan ABŞ-ın daim diqqət mərkəzindədir. Region uğrunda gedən geosiyasi və geoiqtisadi mübarizədə böyük dövlətlərin, həmçinin region dövlətlərinin maraqlarının olması müxtəlif dövrlərdə böhranlara səbəb olur. Türkiyənin mövqeyinə gəldikdə isə o, ABŞ-ın regionla bağlı bütün layihələrində nümunə (model) ölkə olmalıdır. Bu baxımdan Türkiyəyə bilavasitə və ya dolayı yolla iqtisadi yardımlar və investisiyaların çoxalması onun ABŞ-a bağlılığını artıra bilər. ABŞ-ın nüfuz sahibi olmaq istədiyi regionlardan biri kimi Yaxın Şərq hələ də qeyri-sabit vəziyyətdədir. Son illərdə ABŞ-ın Yaxın Şərqdəki münqaişələrdə problemlərin həll edilməsində nizamlayıcı rolu olması da mıhz bu baxımdCorc Buş dövründəki "Böyük Orta Şərq" layihəsi çərçivəsində İran, Suriya və İraqa ediləcək hərbi müdaxilələrdə bu ölkələrin qonşu Türkiyədən yararlanmaq istəyi yaranmalı idi. Həm ikitərəfli Türkiyə-ABŞ münasibətləri baxımından, həm də NATO çərçivəsində müdaxilələr üçün türk silahlı qüvvələrindən dəstəyin ABŞ üçün vacibliyi Türkiyəni strateji müttəfiq kimi hələ də saxlamaqda yardım edir.

Yaxın Şərqdə ABŞ və Türkiyə maraqları dörd istiqamətdə üst-üstə düşür: 1. Regional siyasətdə uğur qazanmaq; 2. İki müttəfiq dövlətin əməkdaşlığı; 3. Siyasətləri bir-birinə uyğunlaşdırmaq; 4. Ortaq məqsədlər üçün çalışmaq. Məhz bu məsələlərin hamısında ABŞ region siyasətində Türkiyəsiz hır hansı daha üstün nəticələr əldə edə bilməz. Türkiyənin bu baxımdan ABŞ üçün vacibliyi günü gündən intensivləşir.

**“Türkiyə-İran münasibətləri ABŞ-ın xarici siyasət prizmasında”** adlanan **ikinci yarımfəsildə** Müasir dövrdə Türkiyə İran münasibətləri təkcə iki ölkənin xarici siyasəti baxımından deyil, eyni zamanda regionda həyati maraqlara sahib olan ABŞ-ın daim diqqət mərkəzindədir. Hələ inqilabdan sonra İran Qərb ittifaqından qopmasına baxmayaraq, İranın parçalanması və ya Sovet nüfuzuna meyllənməsini əngəlləmək üçün ABŞ İranın Türkiyə ilə dialoq qapısını açıq tutdu. Türkiyə tərəfinə gəlincə, həm ABŞ-ın bölgədəki müttəfiqi, həm də İranın qonşusu olması onu regionda baş verən hadisələrdən kənarda qoymur. Digər tərəfdən, Türkiyə İran münasibətlərini ABŞ-ın xarici siyasət prizmasından dəyərləndirməyi vacib hesab olunduğuna görə, bu yarımfəsildə Türkiyə-İran-ABŞ üçbucağında ortaq və toqquşan maraqlara xüsusi yer verilmişdir. İranın müasir dövdə nüvə proqramına yiyələnmək cəhdləri, iki dövlət arasındakı enerji məsələləri, İsrail dövlətinin ikitərəfli münasibətlərdə yeri və nəhayət ABŞ-ın qeyd olunanlara dair mövqeyinə nəzər yetirilmişdir.

Tarixi baxımdan turan-fars qarşıdurması daim mövcud olmuşdur. Lakin əvvəlki zamandan fərqli olaraq həm Türkiyə, həm də İran dövlətləri belə hesab edirlər ki, bölgəyə qaydaların kənardan gətirilməsi düzgün deyil və bu baxımdan, hər iki dövlət əməkdaşlıq etməklə bərabər, regional güc olaraq bölgədə daha fəal mövqe nümayiş etdirməyə cəhd edirlər.

**“Türkiyə-İsrail münasibətlərinin tənzimlənməsində ABŞ-ın rolu”** adlanan **sonuncu yarımfəsildə** isə Yaxın Şərqdə ABŞ-ın əsas müttəfiqi olan İsrail ilə Türkiyənin münasibətləri, bu münasibətlərdə olan problem və böhranlarda ABŞ-ın təmzimləyici və vasitəçi rolu tədqiq olunur. 2000-2015-ci illər arasında Türkiyə ilə İsrail arasında yaşanmış “Alçaq kreslo”, “Serial diplomatiyası”, “Mavi Mərmərə”, “Ərdoğanın Davos fırtınası” və digər böhranlar və nəticələri regiondaki ABŞ üçün iki vacib dövlətin münasibətlərinin korlanmasına imkan verməməklə şərtlənir.

Müasir dövrdə Türkiyə-İsrail münasibətlərində yaşanan sürətli və geniş əhatəli hadisələr regionda Türkiyənin mövqeyinə mühüm təsir edir. Türkiyə-İsrail münasibətlərini qlobal və regional parametrlərə əsasən müəyyənləşdirmək olar:

-Türkiyə İsrailin qlobal əlaqələrini, xüsusən də ABŞ üzərindəki təsirini, yəhudi lobbisinin qlobal güclərə təzyiq göstərmək qüvvəsini nəzərə alaraq onunla əməkdaşlığa meyl edir.

-İsrailin ABŞ-a təzyiq gücünə malik olması Türkiyənin regional münasibətlərinə öz təsirini göstərmişdir. Bir tərəfdən regionun ərəb ölkələrinin tələblərindən, digər tərəfdən də blok daxili təsirlərdən irəli gələn ikitərəfli təzyiq Türkiyəni regional siyasətdə tarazlıq sövq etmişdir.

-Türkiyənin İsraillə münasibətlərində yaranan yumşalma ABŞ-dakı yəhudi lobbisinin Türkiyəyə münasibətində dəyişikliyə səbəb olmuşdur.

Türkiyə-İsrail münasibətlərinin tənzimlənməsində ABŞ faktoruna diqqət yetirsək, görərik ki, müxtəlif vaxtlarda Türkiyə ilə İsrail arasında münasibətlərə mənfi təsir edən amillər olsa da, bu münasibətlərin böyük müttəfiqlik tarixi vardır. Lakin Ərdoğan hökumətinin Orta Şərqdə liderə çevrilmək, ərəb dövlətləri ilə orta səviyyəli münasibətləri yüksəltmək kimi səyləri iki dövlət arasında yaşanan kəskin qarşıdurma və böhran vəziyyətinin davam etməsinə səbəb olmuşdur. Bu baxımdan Türkiyənin İsraillə münaqişəli münasibətləri siyasi taktika kimi nəzərdən keçirilə bilər. Türkiyə-İsrail münasibətlərinin gələcəyi bu dövlətlərin mövcud problemlərin həllinə necə yanaşmasından, diplomatik də vasitələrdən istifadə etmək potensialını davam etdirmək qabiliyyətindən asılıdır.

**Nəticədə** tədqiq edilən mövzularla bağlı ümumiləşdirilmələr aparılmış, Türkiyənin region və dünya siyasətində rolu və yerinin vacibliyi, ABŞ-la olan müttəfiqliyin qırılmazlığı ortaya qoyulmuşdur. Bununla yanaşı müəllif o nəticəyə gəlir ki, Türkiyə özünü Qərb ilə Şərq arasında körpü, tənzimləyici və tarazlayıcı tərəf hesab edir. Bir tərəfdən Türkiyənin Orta Şərqdə lider olmaq arzusu, digər tərəfdən isə qərbyönümlü güc nümayiş etdirməsi regionda baş verə biləcək istənilən hadisəyə münasibəti onun beynəlxalq mövqeyinə təsir edəcək.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

1. Müasir dövrdə Türkiyə-ABŞ münasibətlərinin siyasi tərəfləri//Tarix və onun problemləri jurnalı. 2013. №1. s 160-167
2. Türkiyənin Orta Şərqdə artan təsiri və ABŞ//Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. 2013. №17. s 108-113
3. Cənubi Qafqazda siyasi,iqtisadi, ekoloji və enerji təhlükəsizliyi problemi//NATO-nun Yeni Strateji konsepsiyası və

cənubi Qafqazda təhlükəsizlik çağırışları. Beynəlxalq konfransın məruzə və tezislər toplusu. 2013 s115-116

4. Müasir dövrdə Türkiyə-ABŞ siyasi münasibətlərinə dair qeydlər//Doktorantların və gənc tədqiqatçıların XVIII respublika-elmi konfrasnının materiallı.I cild. 2013 s486-487

5. ABŞ-ın Türkiyə-İsrail münasibətlərinin nizamlanmasında rolu//Tarix və onun problemləri jurnalı. 2014 №3. s-130-136

6. Cənubi Qafqazda ABŞ mövqeyinin Türkiyə-Azərbaycan münasibətlərinə təsiri// "Qloballaşma şəraitində diplomatik münasibətlərin iqtisadi və siyasi xüsusiyyətləri" mövzusunda BDU-nun 95 illik yubileyinə həsr olunmuş respublika səviyyəli elmi-praktik konfransın materialları. 2014 s109-113

7. Türkiyə-İran münasibətləri ABŞ-ın xarici siyasət kontekstində//Tarix və onun problemləri jurnalı. 2014 №4. s-165-173

8. Türkiye`nin Kafkasya Siyasetinde Amerikan Faktörü//Akademik Hassasiyetler. Ankara 2014 №2. s165-187

9. Çağdaş dövrdə NATO çərçivəsində ABŞ-Türkiyə münasibətləri//Geostrategiya jurnalı. 2016 №01(31) yanvar-fevral sayı s56-60

**ЭЛЬДАР АРИФ оглы ДЖАФАРОВ**

## Военно-политические аспекты турецко-американских отношений на современном этапе

### Резюме

Диссертационная работа посвящена одной из актуальных тем современных международных отношений – изучению военно-политических аспектов отношений Турции и США.

Диссертация состоит из введения, 3-х глав, заключения и списка использованной литературы.

Во Введении обосновываются актуальность темы, научная новизна и теоретическая и практическая значимость работы; даются сведения о степени изученности проблемы, об объекте, предмете, целях, задачах, методологической основе и теоретической базе исследования.

В первой главе - «Политологический анализ турецко-американских отношений» даётся обзор о проблемах межгосударственного сотрудничества, их сущности и теоретико-концептуальных основах; а также о турецко-американском военно-политическом сотрудничестве в период

холодной войны,  о причинах его становления, разногласиях и политических итогах.

Во второй главе – «Основные направления военно-политического сотрудничества между Турцией и США» исследуются основные направления турецко-американского военно-политического сотрудничества на современном этапе, особо акцентируется внимание на вопросы сотрудничества Турции и США в рамках НАТО, о факторе США в турецко-российских отношениях, о месте США в кавказской политике Турции.

В третьей главе - «США в политике Турции на Среднем Востоке: региональное сотрудничество и противоречия» в целом анализируются вопросы роли Турции в ближневосточной политике США, турецко-иранские взаимоотношения в контексте внешней политики США, роли США в урегулировании турецко-израильских отношений.

В «Заключении» подводится итог работе, формулируются обобщающие выводы и рекомендации касательно перспектив турецко-американских отношений, что свидетельствует о возможных прогнозах относительно направлений их развития.

**ELDAR JAFAROV ARIF oglu**

## Political and military aspects of Turkey-US relations in contemporary period

### Summary

This dissertation work aims to research political and military aspects of Turkey-US relations as one of the significant topics of contemporary International Relations. Turkey considers the US as a main strategic partner in political, military and energy security issues.

This research paper consists of introduction, three chapters, nine sections, conclusion and list of reference.

In introduction, the author aims to identify the importance of this topic, its purpose, and objectives, define a theoretical and

methodological framework and indicate a scientific innovation and practical importance of this research paper.

In this research paper, the first chapter named on “Turkey-US relations in a context of political analyse” consists of three sections. In this chapter, the author analyses interstate cooperation, its objectives, and theoretical framework.

The second chapter named on “Main trends of Turkey-US military and political cooperation” consists of three sections. In this chapter, the researcher aims to identify Turkey-US cooperation within NATO, the US as the main actor in Turkey-Russia relations, and the US’s role in Turkey’s Caucasus policy.

The third chapter named on “The US in Turkey’s Middle East policy: regional cooperation and challenges” consists of three sections. The main purpose of the author is to define the US’s role in Turkey’s Middle East policy, Turkey-Iran relations in the US’s foreign policy, and the US’s role in the rapprochement between Turkey and Israel.

In the conclusion part, the researcher sums up main points and demonstrates final results. In addition, the author suggests some recommendations regarding perspectives on the future of Turkey-US relations that would predict several prospect scenarios in accordance with a development of bilateral relations.

Format: 60x84 $^{1}/_{16}$. Tiraj 100. Sifariş № ......

«         » nəşriyyatı